# Azərbaycanın haqq savaşı xarici mətbuatda


Putin llama "suicidio" la posible renuncia de Armenia al acuerdo en Karabaj

İspaniyanın geniş oxucu auditoriyasına malik "La Vanguardia" qəzetinin elektron versiyasında dərc olunmuş yazıda Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin "Rossia 24" telekanalına müsahibəsində Qarabağla bağlı dediyi fikirlər yer alıb.

AZƏRTAC xəbər verir ki, yazıda Vladimir Putinin beynəlxalq hüquqa əsasən Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olması, hətta Ermənistanın belə qondarma qurumun "müstəqilliyi"ni tanımaması ilə bağlı fikirləri əks olunub.

Rusiya Prezidenti qeyd edib ki, Azərbaycan Ermənistan ərazisinə hücum etməyib və buna görə də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı döyüşlərə müdaxilə edə bilməzdi.

Yazıda, həmçinin Vladimir Putinin "əldə edilən üçtərəfli razılaşmadan imtina etməsi Ermənistan üçün "intihar" olardı" fikri yer alıb.

❖ ❖ ❖




Noyabrın 18-də xarici jurnalistlər işğaldan azad olunmuş Füzuli şəhərinə səfər zamanı orada Ermənistanın törətdiyi müharibə cinayətlərinin ağır nəticələri ilə tanış olublar. Media nümayəndələri arasında "Əl-Cəzirə" kanalının müxbiri də olub.

AZƏRTAC xəbər verir ki, kanal Füzuli şəhərindən süjet yayımlayıb.

Süjetdə bildirilir ki, demək olar bütün Füzuli şəhəri dağıntılar içindədir. Azərbaycan hökuməti dəymiş ziyanı qiymətləndirmək üçün xarici ekspertləri dəvət edəcəyini və törətdiyi müharibə cinayətlərinə, vandalizm aktlarına görə Ermənistanı beynəlxalq məhkəməyə verəcəyini bildirib.

Süjetdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə müsahibə də yer alıb.

Prezidentin köməkçisi bildirib ki, bu dağıntılar Ermənistanın Füzuli şəhərini vandalizmə məruz qoymasının nəticəsidir. Füzuli işğaldan əvvəl Azərbaycanın ən gözəl şəhərlərindən biri idi. Azərbaycan artıq şəhərsalma işlərinə başlayıb. Daha sonra biz Füzuliyə və işğaldan azad olunmuş digər ərazilərə məcburi köçkünləri qaytaracağıq. Beynəlxalq ictimaiyyət bununla da Ermənistanla Azərbaycan arasındakı fərqi görəcək. Hamı Ermənistanın dağıdıcı fəaliyyətinin və Azərbaycanın quruculuq işlərinin bir daha şahidi olacaq. Təbii ki, Ermənistan vandalizm və insanlığa qarşı müharibə cinayəti əməllərinə görə məsuliyyət daşımalıdır. Biz beynəlxalq məhkəmələrə müraciət edəcəyik.

Hikmət Hacıyev işğaldan azad edilmiş ərazilərdə heç bir infrastrukturun qalmadığını, hətta bir binanın belə olmadığını bildirib. O, bütün bu ərazilərin ermənilər tərəfindən minalandığını diqqətə çatdırıb.

❖ ❖ ❖


Ozarbayjon Qorabog'dagi vayronagarchilik uchun Armanistondan kompensatsiya talab qiladi

Özbəkistanın "azon.uz" və "daryo.uz" portalları Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunan Füzuli və Cəbrayıl rayonlarına, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərinə səfərləri barədə məqalələr yayıb.

AZƏRTAC xəbər verir ki, məqalələrdə dövlət başçısının bu şəhərlərin ermənilər tərəfindən dağıdılması ilə bağlı fikirləri əks olunub.

Yazılarda Azərbaycan Prezidentinə istinadla deyilir: "Mən demişəm, bir daha demək istəyirəm ki, beynəlxalq qurumlar gələcək, ekspertlər gələcək, bütün ziyan hesablanacaq. Otuz il ərzində bizə vurulmuş ziyan hesablanacaq. Bu günlərdə Kəlbəcəri dağıdan, meşələri qıran, binaları, məktəbləri yandıran düşmən onun da cavabını verəcək".

❖ ❖ ❖


NEWS
Jewish-Muslim Solidarity in Azerbaijan

Nyu Yorkda nəşr edilən "Tablet" yəhudi qəzetində Azərbaycan Dağ Yəhudiləri İcmasının sədri Melih Yevdayevin "Azərbaycanda yəhudi-müsəlman həmrəyliyi" sərlövhəli məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, materialda Azərbaycanda yəhudilərlə müsəlmanların dinc yanaşı yaşaması, bu ölkənin tolerantlıq və multikulturalizm ənənələri, ermənilərin Azərbaycana qarşı təcavüzü və bu ilin sentyabr-noyabr aylarında ölkə ərazilərinin erməni işğalından azad edilməsindən bəhs olunur.

Müəllif yazır ki, Azərbaycan ilə Ermənistan arasında 44 günlük müharibə noyabrın 10-da başa çatıb. Ermənistan atəşi dayandırmağa və işğal etdiyi əraziləri tərk etməyə razılaşmaq məcburiyyətində qalıb. Son 30 ildə Ermənistan suveren Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayırdı. 800 minə yaxın azərbaycanlı ölkə daxilində zorla köçürülüb, münaqişənin əvvəlində 250 minə yaxın azərbaycanlı Ermənistandan qovulub.

M.Yevdayev yazır ki, atəşkəsdən bir neçə gün əvvəl Azərbaycan Şuşa şəhərini uğurla özünə qaytarıb. Bütün Azərbaycan xalqı üçün xüsusi əhəmiyyət kəsb edən, respublikanın mədəniyyət paytaxtı sayılan Şuşa şəhəri həm də bu müharibənin ən tanınmış və sevimli qəhrəmanlarından biri olan Albert Aqarunovun fədakarcasına döyüşdüyü və 1992-ci ildə erməni snayperinin atəşi nəticəsində həlak olduğu yerdir. Aqarunovun həyatı azərbaycanlı müharibə qəhrəmanı olan yəhudinin həyat tarixçəsidir. Bu, Azərbaycanın müsəlman, yəhudi və xristian məzhəbli vətəndaşları arasında dostluğun və dinc yanaşı yaşamağın nümunəsidir.

Müəllif qeyd edir ki, Aqarunov 1991-ci ildə erməni təcavüzkarlarına qarşı könüllü olaraq cəbhəyə gedənlərdən biri olub. 1992-ci ildə Şuşanın müdafiəsi zamanı yaralanmış yoldaşını xilas etmək üçün tankdan çıxarkən erməni snayperi onu güllə ilə vurub.

Yevdayev yazır ki, Albert Şəhidlər xiyabanında dəfn edilib. O, Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülmüş ilk döyüşçülərdən biri olub. Bakı küçələrindən birinə Albert Aqarunovun adı verilib, keçən il həmin küçədə onun abidəsi açılıb.

Bununla bərabər, qeyd etmək lazımdır ki, dünyanın bir çox ölkələrində, o cümlədən Avropada və Birləşmiş Ştatlarda antisemitizmin geniş yayıldığı bir dövrdə əhalisinin əksəriyyəti müsəlmanlar olan Azərbaycan dünyada yəhudilər üçün ən təhlükəsiz yerlərdən biri, İsrail Dövlətinin yaxın dostu və strateji müttəfiqidir. Yəhudilər əsrlərboyu Azərbaycanda dinc yanaşı yaşayırlar.

1742-ci ildə Azərbaycanın Quba bölgəsinin hökmdarı yəhudilər üçün ayrıca icma təsis edib. Bu icmanın üzvləri müsəlman hökmdarlar tərəfindən qorunmaqla bərabər, özlərinin firavanlaşan şəhərini qurmaq üçün zəruri resurslar da əldə ediblər. Rusiyada və Şərqi Avropada yaşayan yəhudilərin çoxu həmin şəhəri "Kiçik Yerusəlim" adlandırırdılar. Hazırda "Qırmızı Qəsəbə" adlanan bu yaşayış məntəqəsi İsrailin və Nyu York ştatının hüdudlarından kənarda yerləşən yeganə yəhudi qəsəbəsidir.

Azərbaycan əsrlərboyu yəhudiləri müdafiə edib. İkinci Dünya müharibəsi dövründə Azərbaycan Holokostdan xilas olmağa çalışan 10 minə yaxın avropalı yəhudiyə sığınacaq verib.

Bu gün Qırmızı Qəsəbədə yəhudi icması firavan şəraitdə yaşayır, burada gözəl sinaqoqlar inşa edilib. Azərbaycanda 30 minə yaxın yəhudi yaşayır. Hakimiyyətin bütün şaxələrində təmsil olunmuş bu insanlar Azərbaycanda həyatın bütün sahələrində fəal iştirak edirlər.

Müəllif Ermənistan-Azərbaycan münaqişəsindən söhbət açaraq yazır ki, budəfəki silahlı münaqişə 1990-cı illərin əvvəlində başlanıb. O vaxt Ermənistan Azərbaycanın Qarabağ regionundakı şəhərlərə və kəndlərə soxularaq minlərlə dinc azərbaycanlını, o cümlədən körpələri, qadınları və qocaları qətlə yetirib. Buna cavab olaraq, Azərbaycanda yaşayan müsəlmanlar, yəhudilər və xristianlar öz vətənlərini və həmvətənlərini müdafiə etmək üçün çiyin-çiyinə döyüşüblər, lakin ermənilər Qarabağ regionunu işğal edə bilmişdilər.

Müəllif daha sonra ötən əsrin əvvəlində başlanmış münaqişənin tarixindən söhbət açaraq qeyd edir ki, 1918-ci ildə ermənilər Azərbaycan xalqına qarşı soyqırımı törədib, əksəriyyəti qadınlar və uşaqlar olmaqla 12 minə yaxın azərbaycanlı müsəlmanı qətlə yetiriblər. O vaxt Bakıda yaşayan azərbaycanlıların orta hesabla beşdəbir hissəsi millətçi daşnak ermənilər tərəfindən qətlə yetirilib. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin apardığı təhqiqat nəticəsində məlum olub ki, o vaxt Bakıda yaşayan yəhudilərin çoxu azərbaycanlı müsəlmanları bu qırğından xilas etmək üçün əllərindən gələni ediblər. Həmin ildə ermənilər Qubada da yaşayan azərbaycanlılara və yəhudilərə qarşı kütləvi qırğın törədiblər.

İkinci Dünya müharibəsi illərində ermənilər nasistlərlə sıx əməkdaşlıq ediblər. Bu gün nasistlərin həmin erməni əlaltılarını Ermənistanda milli qəhrəmanlar kimi təqdim edirlər. Yerevanın mərkəzini Qaregin Njdenin böyük heykəli "bəzəyir". Bundan əlavə, Yerevanda bir metro stansiyasına və bir meydana Njdenin adı verilib. Ermənistan hökuməti nasistlərin daha bir məşhur əlaltısının - general Dro adı ilə daha çox tanınmış Drastamat Kanayanın xatirəsinə hörmət əlaməti olaraq Drastamat Kanayan adına Milli Strateji Tədqiqatlar İnstitutu yaradıb. Beləliklə, Ermənistan qatilləri və hərbi caniləri təşviq edir.

Müəllif sonda yazır ki, Azərbaycan dinc yanaşı yaşamağın pioneri və nümunəsidir. Bu, çoxkonfessiyalı harmoniyanın bütün icmalar üçün faydalı olmasına parlaq sübutdur. Müəllif ümidvar olduğunu bildirir ki, həm bizim regionda, həm də onun hüdudlarından kənarda başqa ölkələr də bu müsbət təcrübədən dərs alacaqlar.

❖ ❖ ❖


A Bakou, le rêve de retour des déplacés du Haut-Karabakh

Fransanın məşhur "Le Monde" qəzetində Ermənistan-Azərbaycan münaqişəsinin başa çatmasından sonra yüz minlərlə azərbaycanlının doğma torpaqlarına qayıtmaq arzularından bəhs edən məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə erməni işğalı nəticəsində torpaqlarından didərgin düşmüş insanların öz evlərinə qayıtmaları ilə bağlı fikirləri yer alıb.

Qeyd edilir ki, məcburi köçkünlər 26 il ərzində öz torpaqlarına qayıtmaq arzusu ilə yaşayıblar. Onların Azərbaycan Prezidenti İlham Əliyevin erməni silahlı qüvvələri tərəfindən dağıdılmış şəhər və kəndləri yenidən bərpa etdirəcəyinə inandıqları bildirilir.

"Prezidentimiz hər şeyi yenidən quracaq və biz qayıdacağıq", - deyə 78 yaşlı Ülkər Allahverdiyeva qeyd edir. O, daha sonra deyir: "Hökumətimizə etibar etmişəm və bu gün də etibar edirəm. Qələbəyə görə Prezident İlham Əliyevə təşəkkür edirik və torpaqlarımıza qayıtmağımızı gözləyirik".

Məqalədə bildirilir ki, işğal altında olan ərazilərinin azad edilməsi hər zaman Azərbaycanın dövlət siyasətinin tərkib hissəsi olub. Xalq daim doğma yurduna qayıtmaq arzusu ilə yaşayıb. 1990-cı illərin əvvəllərində Dağlıq Qarabağın və onun ətrafında yerləşən, yalnız azərbaycanlıların yaşadıqları yeddi rayonun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi, aparılan etnik təmizləmə nəticəsində 600 mindən çox azərbaycanlı doğma yurdundan didərgin salınıb.

Məqalədə Qarabağdan didərgin düşmüş Allahverdiyevlər ailəsi başlarına gələn faciələrdən də bəhs edirlər. Onlar erməni silahlı qüvvələrinin axşam saatlarında kəndlərinə daxil olduğunu, evləri tanklardan atəşə tutduğunu, insanların ayaqyalın günlərlə çöllərdən keçərək qurtulmağa çalışdıqlarını xatırlayırlar.

"Biz sadəcə maşına minməyə vaxt tapdıq. Əşyalarımızı, pasportlarımızı götürməyə belə vaxtımız olmadı. Sadəcə evimin qapısını açarla bağladığımı xatırlayıram. Qaçan zaman avtomobilimiz işləmədi, üç gün piyada getməli olduq. Qarabağda yüzlərlə azərbaycanlının yaşadığı kəndlər kimi, bizim Horovlu kəndimiz də tamamilə dağıdıldı", - deyə Ülkər Allahverdiyeva bildirir. O, əlindəki şəkli göstərərək deyir: "Bunlar mənim həyat yoldaşım, oğlum və qardaşım oğludur. Döyüşüb şəhid olublar".

"Hər kəs o torpaqlara qayıdıb iş tapacaq, biz oralarda yeni həyat qurmaq istəyirik". Bu sözləri isə Ülkər Allahverdiyevanın qızı Mehriban Quliyeva 2016-cı ildə hökumətin yenidən qurduğu Cocuq Marcanlı kəndini misal gətirərək deyir.

Ülkər Allahverdiyevanın tibb texnikumunda təhsil alan 25 yaşlı nəvəsi Günay isə deyir: "Bakını sevirəm, amma mən tibb bacısı işləyəcəyim Horovluya gedəcəyəm".

Ermənilərin işğal etdikləri kəndlərdə qəbiristanlıqları dağıtmalarına qəzəblənən Rəhman isə bunları deyir: "Onlar mənim atamın cəsədini qazıb çıxarıblar. Qəbir daşlarını sındırdıqları bir yana qalsın, qəbirləri buldozerlə qazmağa və cəsədlərin qalıqlarını çıxarmağa nə ehtiyac var idi?!". Bu xəbəri Rəhmana onun qardaşının Azərbaycan Ordusunda xidmət edən əsgər oğlu verib. O, Horovluya gedib və kəndin hazırkı vəziyyətini əmisinə təsvir edib.

Rəhman ruhdan düşmədiyini, kəndə qayıdıb orada vaxtilə tikdirdiyi ikimərtəbəli evi yenidən tikdirmək arzusunda olduğunu bildirir.

Onun qonşusu Elçin Hüseynov da ermənilərin bu hərəkətindən qəzəblənir: "Ermənilər otuz ildir torpaqlarımızı talan etdilər. İndi gedəndə evləri yandırırlar. Onlar məhv etdikləri hər şeyə görə cavab verməlidirlər".

Yazıda o da qeyd edilir ki, Qarabağda ərazilərin böyük hissəsi minalanıb və təhlükəsiz yaşamaq üçün əvvəlcə bu ərazilər minalardan təmizlənməlidir.

❖ ❖ ❖




Misirin "Almasryalyoum" qəzetində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin üçrəngli bayrağımızı işğaldan azad olunmuş Füzuli rayonunda qaldırması barədə xəbər dərc edilib.

AZƏRTAC xəbər verir ki, yazıda dövlət başçısının Azərbaycan xalqının yenilməz, Ordumuzun müzəffər olmasını bütün dünyaya göstərdiyimiz haqqında sözləri yer alıb. Qeyd olunub ki, İlham Əliyev 17 il ərzində ölkə Prezidenti və Ali Baş Komandan kimi tarixi Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına heç bir vaxt imkan verilməyəcəyini bildirib.

Qəzetin xəbərində Qarabağda heç bir statusdan söhbət gedə bilməyəcəyini vurğulayan Prezident İlham Əliyevin çıxışından aşağıdakı sitat verilib: "Çoxmillətli, çoxkonfessiyalı, mütərəqqi Azərbaycan dövləti var. Bütün Azərbaycan vətəndaşları, bütün xalqların, dinlərin nümayəndələri normal yaşayırlar, mehribanlıq, sülh şəraitində yaşayırlar. Erməni xalqı da belə yaşayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Mən bu 44 gün ərzində çoxsaylı müsahibələrimdə demişəm, onlar bizim vətəndaşlarımızdır və onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında onlar yaxşı yaşayacaqlar, onlar kriminal, qorxaq xunta rejimindən öz yaxasını qurtarmalıdırlar".

❖ ❖ ❖



"Dağlıq Qarabağın müstəqilliyinin tanınmasına dair çağırış Fransa tərəfindən qəbul edilmiş beynəlxalq və ikitərəfli öhdəliklərə ziddir və buna görə də beynəlxalq hüquqa hörmətlə yanaşanlar tərəfindən qəbul edilə bilməz. Fransa üzərinə BMT Təhlükəsizlik Şurasının qətnamələri ilə bağlı öhdəlik götürüb və hər hansı yeni diplomatik mövqe Dnestryanı (Moldova) və ya Şimali Osetiya (Gürcüstan) kimi bir çox separatçı ərazilərin tanınmasına yol açaraq, ölkəmizin beynəlxalq öhdəliklərinə yenidən dönüşünü doğurur".

AZƏRTAC xəbər verir ki, bu fikirlər fransız deputat Jerom Lamberin Sosialist Partiyasından olan həmkarlarının Dağlıq Qarabağla bağlı fikirlərinə etiraz olaraq ünvanladığı məktubda yer alıb.

Məktubda qeyd olunur ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri ilə müəyyən edilmiş beynəlxalq hüquq prinsipləri Dağlıq Qarabağla bağlı məcburi kompasımız olaraq qalmalıdır. Üstəlik, bu, son onilliklər boyunca fransız diplomatiyasının dəyişməz mövqeyi olub.

Fransa Sosialist Partiyasının Milli Bürosunda Dağlıq Qarabağda vəziyyətlə bağlı mətnə etiraz edən Jerom Lamber fransız siyasətçilərini bir qrup ifratçı ermənininin diktəsi ilə oturub-durmamağa, hər hansı bir qərara qəbul edərkən diqqətli olmağa və onun nəticələri haqqında düşünməyə səsləyib. O, eyni zamanda həmkarlarının Dağlıq Qarabağla bağlı səsləndirikləri fikirlərin Fransanın qəbul etdiyi beynəlxalq və ikitərəfli öhdəliklərə tamamilə zidd olduğunu, eləcə də beynəlxalq hüququn bir neçə prinsipini, xüsusilə sərhədlərin toxunulmazlığı prinsipini pozduğunu diqqətə çatdırıb.

Fransız deputat xatırladıb ki, BMT Dağlıq Qarabağ, eləcə də Ermənistanın 1993-cü ildən işğal etdiyi digər ərazilər də daxil olmaqla, bütün bu torpaqlar üzərində Azərbaycan Respublikasının suverenliyini tanıyıb. Jerom Lamber 1993-cü ilin dekabrında Fransa və Azərbaycan arasında imzalanmış dostluq, anlaşma və əməkdaşlıq müqaviləsinin məğzini də xatırladaraq, bildirib ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrində müəyyən edilmiş beynəlxalq hüquq prinsipləri Dağlıq Qarabağla bağlı məcburi kompas olaraq qalmalıdır.

O həmçinin diqqətə çatdırıb ki, Fransa beynəlxalq səviyyədə götürdüyü öhdəliklərə əməl etməli və hətta nüfuzlu erməni mənşəli fransız icmasının təzyiqləri altında olsa da, medianı təhdid etməməli, müvafiq qurumlara, eləcə də seçilmiş məmurlara təzyiq göstərməməlidir.

"Ailə üzvlərimə ölüm hədələri də daxil olmaqla, minlərlə təhqir və təhdid mesajları alıram. Bütün bu təhqir və hədələr mənə Fransa diplomatiyasının mövqeyini xatırlatmaqdan çəkindirmək üçün ünvanlanır", - deyə J. Lamber yazıb. Vurğulayıb ki, bəzilərinin seçki dairələrində erməni icması ilə əlaqələrini bilsək də, Sosialist Partiyası beynəlxalq hüquqa məhəl qoymadan daim millətçi çıxışlar edən ermənilər tərəfindən ələ keçirilməməlidir.

"Dünyanın bu bölgəsində və digər bölgələrində Fransanın layiqli diplomatik mövqe tutmasını istəyiriksə, əslində çox ifratçı erməni qrupunun diktə etdiyi nöqteyi-nəzərləri qəbul etməməli və buna diqqət yetirməliyik. Əgər atəşkəs istəmiriksə, onun yerinə nə istəyirik?! Əbədi müharibəmi?", - deyə J. Lamber həmkarlarına səslənib və onları beynəlxalq hüquq çərçivəsində regiondakı insanlar üçün sülh və firavanlığı təmin etməyə çağırıb.

❖ ❖ ❖




İranın İRNA xəbər agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilən Cəbrayıl rayonuna səfəri ilə bağlı material yayıb.

AZƏRTAC xəbər verir ki, materialda Prezident İlham Əliyevin Araz çayının sahili ilə, tarixi Xudafərin körpüsünün yanından keçərək işğaldan azad edilən Cəbrayıl şəhərinə getdiyi qeyd olunub.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev Cəbrayıl rayonunun tam bərpa olunacağını bəyan edib. Bildirib ki, ermənilər Cəbrayıl rayonunu işğal etdikdən sonra buranı darmadağın ediblər. Lakin Azərbaycan dövləti yalnız Cəbrayıl rayonunu deyil, işğaldan azad olunan bütün rayonları bərpa edərək orada müasir infrastruktur yaradacaq.

Materialda Prezident İlham Əliyevin "Azərbaycan-İran sərhədi dostluq sərhədi olacaq" sözləri xüsusi vurğulanıb.

❖ ❖ ❖


MEDIAPART
LE JOURNAL
Tribune des Azerbaïdjanais de France à destination du Ministre Jean-Yves Le Drian
Les azerbaïdjanais de France interpelle le Ministre de l'Europe et des Affaires étrangères Jean-Yves Le Drian sur la véritable hystérie anti-azerbaïdjanaise qui se manifeste sur le territoire national depuis quelques semaines et la position largement pro-arménienne du MEAE de la France - pourtant pays coprésident du Groupe de Minsk de l'OSCE.

"Azərbaycanın paytaxtı Bakıda Korsika Milli Qurtuluş Cəbhəsinin nümayəndəliyi fəaliyyət göstərsəydi və Korsikanın fəxarət rəmzi olan Korsika Milli Qurtuluş Cəbhəsinin bayrağı 27-28 oktyabr tarixlərində Ermənistanın raket hücumundan əziyyət çəkən Bərdə adlı kiçik şəhərin meriyasının qarşısında dalğalansaydı, necə reaksiya verərdiniz? Qadın və uşaqlar da daxil olmaqla, 20-dən çox mülki şəxsin həlak olması və 80-dən çox insanın yaralanması ilə nəticələnən hücumdan danışırıq. Hər zaman könüllü olaraq insan hüquqları mövzusunda dərs verən nazirliyiniz bu hərbi cinayətlərə göz yumdu. Azad edilmiş şəhərlərin görüntüləri Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın beynəlxalq hüquqa ciddi şəkildə zidd olan aktiv müstəmləkəçilik siyasəti apardığını aydın şəkildə göstərir. Bununla belə cənab nazir, nazirliyiniz buna da biganə qalır".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransada yaşayan soydaşlarımızın Qarabağ məsələsində bu ölkənin qərəzli mövqeyinə etiraz əlaməti olaraq Avropa və xarici işlər naziri Jan-İv Lö Driana ünvanladıqları və "Mediapart" portalında dərc olunmuş müraciətdə yer alıb.

Müraciətdə Qarabağın tarixi ilə bağlı ətraflı məlumat verilib. İyul ayından etibarən separatçı qurumun qondarma "bayrağı"nın Bourg-les-Valence şəhərinin bələdiyyə binasının qarşısında dalğalandığı, ancaq Fransa XİN-in fransız qanunlarının pozulmasına reaksiya göstərmədiyi pislənilib.

Bu cür faktların yeni olmadığı bildirilərək, Parisdə 2008-ci ildən bəri "Dağlıq Qarabağ respublikası"nın Fransadakı "daimi nümayəndəliyi"nin Fransa-Azərbaycan münasibətlərini pozmaq üçün iş apardığı diqqətə çatdırılıb.

Bildirilib ki, sentyabrın 27-də müharibə başlayandan Fransada həm mediada, həm də Milli Assambleyada və bu gün qanunsuz, qərəzli, konstitusiyaya zidd və hər şeydən əvvəl, ən aşağı erməni millətçi instinktləri ilə bağlı qeyri-qanuni arzunu dilə gətirən Paris meriyasının divarları arasında özünü göstərən açıq anti-Azərbaycan isterikası nümayiş olunur. Biz, Azərbaycan mənşəli Fransa vətəndaşları, ATƏT-in Minsk qrupunun həmsədri olan Fransa Avropa və Xarici İşlər Nazirliyinin ermənipərəst mövqeyindən qəzəblənirik.

Azərbaycan mənşəli Fransa vətəndaşları Milli Assambleyada hakim partiyanın millət vəkillərinin qondarma "Dağlıq Qarabağ respublikası"nın tanınması bəyannaməsinin qəbul edilməsi üçün kampaniya apardığını bildirərək, bununla ciddi şəkildə qanundan kənara çıxdıqlarını və Fransa XİN-in bu separatçı qurumla bağlı reaksiya verməməsinə təəssüflərini bildiriblər.

Qeyd olunub ki, bir çox fransız mediası erməniəsilli Fransa vətəndaşlarının Qarabağdakı döyüş bölgəsinə göndərilməsinin görüntülərini yayıb. Bu vəziyyət Fransanın vasitəçi statusu yox, muzdluların işə götürülməsi, istifadəsi, maliyyələşdirilməsi və təliminə qarşı 4 dekabr 1989-cu il tarixli Beynəlxalq Konvensiyanın açıq şəkildə pozulmasıdır.

Azərbaycan mənşəli Fransa vətəndaşları diplomat və siyasətçi kimi bu qərəzliliyin iki ölkə arasındakı dostluğa və münasibətlərə yaratdığı təhlükəli nəticələri anlayacağına ümid etdiklərini bildiriblər.

Fransa Xarici İşlər nazirinə ünvanlanan müraciət bu ölkədə fəaliyyət göstərən aşağıdakı assosiasiyaların rəhbərləri tərəfindən imzalanıb:

Lionda fəaliyyət göstərən Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının prezidenti Günel Səfərova, Parisdəki Ulduz Mədəniyyət Assosiasiyasının prezidenti Aytən Muradova, Parisdəki Fransada Azərbaycanlı Gənc Alimlər Assosiasiyasının administratoru Şəbnəm Süleymanova, Parisdə Fransa-Azərbaycan Gənclər Assosiasiyasının prezidenti Kəmalə Gülməmmədova, Nant Fransada Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti Toğrul Zeynalov, Strasburqdakı Fransada Azərbaycanlı Tələbələr Assosiasiyasının prezidenti Fərid Əliyev, Strasburqda Kəpəz Assosiasiyasının prezidenti Dilbadi Qasımov.

❖ ❖ ❖



Azərbaycanın Ermənistan ordusu tərəfindən uzun illərdən bəri işğal altında saxlanılan torpaqlarının azad edilməsi barədə İndoneziya mətbuatında təbliğat işinin davam etdirilməsi məqsədilə, ölkəmizin İndoneziyadakı səfiri Cəlal Mirzəyev Qərbi Yava əyalətinin Purvakarta şəhərinə səfəri çərçivəsində burada fəaliyyət göstərən kütləvi informasiya vasitələrinə müsahibələr verib.

AZƏRTAC xəbər verir ki, "Radio Akom" və "Ash-Shidiq" radiolarına, "Pasudan Ekspres" qəzetinə və "Jabarnews.com" xəbər portalına müsahibələrində səfir Azərbaycanın coğrafi mövqeyi, tarixi və iqtisadiyyatı haqqında ətraflı danışıb. Diplomat Azərbaycan ilə İndoneziya arasında siyasi və iqtisadi münasibətlər, həmçinin iki dost ölkənin regionlarının əməkdaşlıq imkanları haqqında məlumat verib.

Eyni zamanda C.Mirzəyev Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, beynəlxalq səviyyədə tanınmış ərazilərimizin bu ölkənin silahlı qüvvələri tərəfindən işğal edilməsi və həmin ərazilərdə azərbaycanlıların etnik təmizləməyə məruz qalması barədə sualları cavablandırıb. Səfir işğal nəticəsində 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyini, Ermənistanın BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin icrasına məhəl qoymadığını bildirib.

Cari ilin iyulundan başlayaraq Ermənistan silahlı qüvvələrinin sərhəddə və təmas xətti boyunca intensiv şəkildə hərbi təxribatlara əl atması, xüsusilə sentyabrın 27-də genişmiqyaslı hərbi təcavüzə başladığı vurğulanıb.

Səfir C.Mirzəyev Ermənistan silahlı qüvvələrinin Birinci Qarabağ müharibəsi zamanı qadın, uşaq, yaşlı insanlar arasında fərq qoymayaraq, qətliamlar törətməsi, tarixi-dini abidələri dağıtması, hətta Azərbaycan xalqının hisslərini təhqir etmək məqsədilə işğal altındakı torpaqlarımızdakı məscidləri tövləyə çevirərək orada donuz saxlamaları haqqında geniş danışıb.

Həmçinin Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən etibarən Azərbaycana qarşı başladığı yeni hərbi təcavüz zamanı xüsusilə Gəncə, Bərdə, Tərtər və digər şəhərlərə endirilən raket zərbələri ilə mülki əhaliyə qarşı törədilən amansız hücumlar barədə geniş məlumat verilib. Bildirilib ki, bu hücumlar nəticəsində onlarca insan, o cümlədən uşaqlar və qadınlar həlak olub, yüzlərlə sakin yaralanıb. İndoneziyalı jurnalistlər Ermənistan silahlı qüvvələrinin Azərbaycan xalqının başına gətirdiyi faciələrə, son günlərdə yaşanan hadisələrə görə dərin təəssüf hissi keçirdiklərini və ən qısa zamanda ədalətin öz yerini tapacağına ümid etdiklərini bildiriblər.

Haqlı mübarizəmizin təkcə İndoneziya XİN tərəfindən deyil, həmçinin İndoneziya Nümayəndələr Palatasının Parlamentlərarası Əməkdaşlıq Komitəsi, Parlament fraksiyaları, İndoneziyanın bütün müsəlman dini icmalarını özündə birləşdirən Üləmalar Məclisi tərəfindən yazılı bəyanatlarla dəstəkləndiyi müsahibələrdə xüsusi vurğulanıb.

Azərbaycanlı səfir indoneziyalı dinləyicilərə və oxuculara ölkəmizin iqtisadi inkişafı, aparılan islahatlar, Azərbaycanın regionda liderliyi ilə həyata keçirilən irimiqyaslı transregional enerji və infrastruktur layihələri, habelə Azərbaycan-İndoneziya münasibətləri barədə də geniş məlumat verib. Ölkələrimiz arasında əməkdaşlığın inkişaf yolunda olduğu və bu əlaqələrin daha yüksək səviyyəyə qaldırılması məqsədilə bir sıra konkret sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyi vurğulanıb.

Ölkələrimiz arasında investisiya qoyuluşu sahəsində əməkdaşlıq üçün böyük potensialın olduğunu qeyd edən diplomat Azərbaycandakı əlverişli investisiya mühiti haqqında məlumat verib. Azərbaycan-İndoneziya münasibətlərinin möhkəm zəmində inkişaf etdirilməsi məqsədilə ölkələrimizin regionları arasında əlaqələrin yaradılmasının zəruriliyini vurğulayıb.

Müsahibələr zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı son hərbi təcavüzü nəticəsində dinc əhaliyə, dini abidələrə qarşı hücumları əks etdirən əyani materiallar mətbuat nümayəndələrinə təqdim edilib.